# Tehranda Xalq şairi Nəriman Həsənzadənin "Kulturologiya: Dünya mədəniyyəti tarixi" kitabı nəşr olunub







Qədim dünya mədəniyyəti ənənələri və inanclarına, fəlsəfi fikir tarixinə yaxından bələdlik sayəsində araya-ərsəyə gələn kitab akademik Arif Mir Cəlal oğlu Paşayevə dərin ehtiramla qələmə alınıb. Misir, Roma, hind, türk, yunan, rus mədəniyyətinin, ədəbi-mədəni fikir tarixinin kontekstində qələmə alınan kitabda görkəmli şəxsiyyətlərin kulturoloji baxışlarına fərqli baxış bucağından nəzər salınıb. Bütövlükdə, "Kulturologiya: Dünya mədəniyyəti tarixi"ndə Homer, Esxil, Aristofan, Sofokl, Bualo, Nizami Gəncəvi, Cəlaləddin Rumi, Deni Didro, Volter, Jan Jak Russo kimi görkəmli fikir adamlarından yönü bəri dünya mədəniyyət tarixində iz qoymuş simaların kulturoloji baxışları sistemli şəkildə araşdırılır.

Kitab yaxın günlərdə Tehranın "Naqus" nəşriyyatında Yeganə Sadat Miri Lavasininin mütərcimliyi ilə çap edilib.

**Sərvaz**